Səh. 2 Əyilmək feilinin şəkli – Azər Musaoğlu

Səh. 5 Günahı özümüzdə axtaraq – Esmira Ələkbərli

Səh. 5 Nənəmin düyünçələri – Afiq Muxtaroğlu

Səh. 6 Mənfi insanların həyatımızdakı rolu – Aytən Fətullayeva

Səh. 3 Hər yarpaq bir xəzandır – Hacı Bəkiroğlu

Səh. 4 1 160 İCTİMAİ MƏKTƏBİN YENİ DİREKTORU OLMAYACAQ

Səh. 7 “Koroğlu”nun əxlaqi-estetik əqidəsi – Elizbar Cavelidze



İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 OKTYABR 2023-CÜ İL № 019 (190)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.


## TÜRKİYƏNİN BAŞ OMBUDSMANI GÜRCÜSTANIN RƏSMİ ŞƏXSLƏRİ İLƏ GÖRÜŞLƏR KEÇİRİB

Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Türkiyənin Gürcüstanda səfərdə olan Baş Ombudsmanı Şeref Malkoç ilə görüşüb. Bu barədə hökumət administrasiyası məlumat yayıb.

Məlumata əsasən, görüşdə Gürcüstan və Türkiyə arasında mövcud strateji tərəfdaşlıq və ölkələr arasında insan hüquqlarının müdafiəsi sahəsində əməkdaşlığa toxunulub.

İ.Qaribaşvili qeyd edib ki, Gürcüstan ölkədə insan hüquqlarının müdafiəsi mexanizmlərinin gücləndirilməsi üçün mühüm addımlar atır. Bu il 2022-2030-cu illər üçün insan hüquqlarının müdafiəsi üzrə ikinci strategiya hazırlanıb, strategiyanın məqsədi Gürcüstanda insan hüquqları və azadlıqlarının







müdafiəsinin sistemli təminatlarını daha da gücləndirməkdir.

Bildirilib ki, strategiyanın məqsəd və vəzifələrinin səmərəli həyata keçirilməsi üçün insan hüquqlarının müdafiəsinə dair 2024-2026-cı illər üçün fəaliyyət planı üzərində iş aparılır və bu planda uşaq hüquqları ilə bağlı müxtəlif məsələlər ətraflı şəkildə qeyd olunacaq.

Sonda tərəflər Gürcüstan və Türkiyədə yaşayan insanlar üçün vacib olan bütün hüquqi məsələlərdə daha da fəal əməkdaşlıq edəcəkləri barədə razılığa gəliblər.

Hökumət administrasiyasında baş tutan görüşdə Türkiyə tərəfdən Xalq Müdafiəçisinin müavini Özlem Tunçak və Türkiyənin Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Ali Kaan Orbay, Gürcüstan tərəfdən isə hökumət administrasiyasının rəhbəri Revaz Cavelidze və Baş nazirin insan haqları üzrə müşaviri Niko Tatulaşvili iştirak ediblər.



Gürcüstanda səfərdə olan Şeref Malkoç həmçinin Gürcüstanın məcburi köçkünlərin işləri, əmək, səhiyyə və sosial müdafiə maziri Zurab Azaraşvili ilə görüşərək, nazirin müavini Tamila Barkalaia ilə birlikdə insan alveri və zorakılıq qurbanları üçün xidmət müəssisəsinə baş çəkərək müəssisənin işi ilə yaxından tanış olubdur.

Baş Ombudsman həmçinin Gürcüstan Parlamentinin İnsan Hüquqlarının Müdafiəsi Komitəsinin sədri Mixeil Sarcveladze, barışıq və vətəndaş bərabərliyi məsələləri üzrə dövlət naziri Tea Axvlediani, Gürcüstanın daxili işlər nazirinin müavini Aleksandre Daraxvelidze ilə görüşüb.

## İRAKLİ QARİBAŞVİLİ: CƏNUBİ QAFQAZIN HƏR ÜÇ ÖLKƏSİ REGİONAL MƏSƏLƏLƏRİ ÖZLƏRİ HƏLL ETMƏLİDİR



Mən bir daha cənab Prezident İlham Əliyevə bildirdim ki, biz Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyirik. Biz Azərbaycana da təşəkkürümüzü bildiririk ki, Azərbaycan da öz növbəsində hər zaman Gürcüstanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir. Onu da qeyd etdik ki, bizim böyük ümidlərimiz var ki, Azərbaycan və Ermənistan sülh sazişini imzalayacaq. Bu baxımdan da bizim Cənubi Qafqazda sülh gündəliyi ilə bağlı fikirlərimiz tam üst-üstə düşür. Ümidvarıq ki, bu bölgədə sülh davamlı olacaqdır və ölkələrimizin firavanlığına xidmət edəcəkdir, həm də Azərbaycan, Ermənistan və Gürcüstan xalqları üçün.

Bu sözləri Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Prezident İlham Əliyevlə keçirdiyi görüşdən sonra brifinqdə söyləyib.

*“Biz burada – Gürcüstanda hər zaman qərəzsiz mövqeyə malik olmuşuq, biz bu gün də hazırıq ki, bu məsələyə töhfə verək. Biz istəyirik ki, bu məsələdə vasitəçilik edək və istənilən dostluq formatını təqdim etməyə hazırıq. Bizim gələcəyimiz dinc, sabit olmalıdır və Cənubi Qafqazın hər üç ölkəsi regional məsələləri özləri həll etməlidir”,* – deyə İ.Qaribaşvili bildirib.

## SALOME ZURABİŞVİLİ: RUSİYANIN ABXAZİYADA HƏRBİ DƏNİZ BAZASI YARATMASI BÜTÜN REGİON ÜÇÜN TƏHDİDDİR



Rusiyanın Abxaziyanın Oçamçir rayonunda öz hərbi dəniz donanması üçün baza yaratması yalnız Gürcüstan üçün deyil, bütün region üçün təhdiddir.

Bunu Gürcüstan Prezidenti Salome Zurabişvili məsələ ilə əlaqədar yaydığı bəyanatında bildirib.

Dövlət başçısı Rusiyanın bu addımının Qara dəniz təhlükəsizliyi, tikintisi planlaşdırılan Anaklia dərin dəniz limanı və Gürcüstanın Avropaya yolu üçün böyük bir mina sahəsi olduğunu deyib.

*“Bu təxribat yalnız Gürcüstanı deyil, bütün regionu təhdid edir. Bu addımla Rusiya Qara dəniz regionunda nüfuzunu gücləndirmək və regionda hökmranlıq etməyə çalışır. Mən Gürcüstanın tərəfdaşlarını və beynəlxalq ictimaiyyəti dərhal buna cavab verməyə çağırıram”,* – deyə Prezident bildirib.



# ƏYİLMƏK FEİLİNİN ŞƏKLİ

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Bizdə əyilmək feili adətən məcazi mənada interpretasiya olunur. Yəni əyilmək deyəndə ağıla ilk olaraq kiminsə qarşısında baş əymək, kiminsə nüfuzunun, vəzifəsinin ağırlıq qüvvəsi altında qəddini əymək, çətinliklərə təslim olmaq, tabe olmaq kimi insan halı, durumu, pozası, şəkli canlanır; və yalnız bundan sonra nəyinsə və ya kiminsə təbii fizioloji, bioloji əyilməyi yada düşür. Bu, bəlkə də fizikadan çox metafizika ilə məşğul olmağımızdan irəli gəlir. Məsələn, fiziki gücümüzlə poladı əyə bilməsək də, metafiziki gücümüzlə insanı, onun poladdan da güclü iradəsini, vicdanını, mənliyini əyməyi bacarırıq.

İgid oğulun düşmənə əyilməzliyini bilsək də, ağacın yaş ikən əyildiyini də yaxşı bilirik. Axı çox eşitmişik, çox görmüşük: ağac əyildi – sındı, igid əyildi – öldü. Ağacın nazikliyindən, adamın yoğunluğundan sındığını da yaxşı bilirik...

Biz çox vaxt əyilməklə başı aşağı əyməyi də səhv salırıq. Ona görə də ağac bar verəndə başını aşağı əyər, biz isə bar alanda – səmərə, xeyir, mənfəət güdəndə ikiqat əyilərik. Ümumiyyətlə, başı dik ağacların əksəriyyəti bar verməyən ağaclardır. Bizdə də belədir: bar verəndə başını aşağı əyən ağaclardan yox, barsız başı dik ağaclardan örnək götürürük...

Özü də bu əyilmək o qədər vüsat tapıb ki, haqq qazandırmaq üçün müxtəlif fənd və bəhanələri də çoxalıb. Məsələn, boynunu qılınca qurban vermək istəməyənlər qılınc qarşısında rüku edirlər ki, əyilən boynu qılınc kəsməz və ya seçim qarşısında qaldıqlarını bəhanə edərək əyilmək üçün büt seçirlər ki, çarığa əyilməkdənsə, çəkməyə baş əyərəm və sair və ilaxır.

Bunlara şükür düşür. Tərəzi gözü kimi iki tərəfə əyilənlər də var, bəlkə də bundan aşağı əyilmək hələ icad edilməyib, bəlkə də əyilməyin ən pis fotoşəkli, kölgəsi budur. Axı əyri adamın kölgəsi də əyri olar.

Gəlin əyri oturaq, düz danışaq. Bizlər olmadıqmı əyrinin sözüylə doğrunu qınayaraq əyrini tox, doğrunu ac görənlər (edənlər). Ümumiyyətlə, heç əyri oturaraq düz fikirləşmisinizmi ki, bu əyri aramıza haradan gəlib girib; özümüzdə necə inkişaf edib, sözümüzdə necə yaranıb?..

Əgər əyri varsa, deməli, bu əyri nə zamansa düz imiş və nə zamansa əyilib; əyilə-əyilə bizimlə birgə gəlib bu günümüzə çıxıb, əyilə-əyilə ədəbiyyatımıza, mədəniyyətimizə soxulub, taxtımıza-tacımıza yiyələnib, ətrafına da əyriləri toplayaraq düzləri, doğruları pul, vəzifə, şan-şöhrət verməklə özü kimi əyri etməyə çalışıb. Əydiyini əyib, əyə bilmədiyini çörəklə sınağa çəkib, dar ağacından asdırıb, səfil edib, didərgin salıb, sürgünə göndərib, güllələtdirib... Yuxarıda misal çəkdiyimiz əyilmək üçün bəhanələri də şüar etdirib, əzbərlətdirib, kitablara saldırıb ki, əyilmək istəyənlərin də iynənin ucu boyda da olsa bir ümid yerləri olsun.

Amma və lakin yükün əyilməsi yük sakibinin də əyilməsinə bəraət qazandırmır. Bu əyri-üyrü Yer kürəsində əyilmədən düz yaşamaq da olar. Düzdür, alçaq qapıları, alçaq tavanlı daxmaları, damları çoxdur bu dünyanın – keçəndə başını əyməli olursan; bəzən əlimizdən saldığımızı qaldırmaq üçün, bəzənsə başqasının saldığını qaldırmaq üçün yerə əyilməli olursan və ya gözəl bir gül gördükdə qoxulamaq üçün dizlərini yerə qoyub əyilirsən, bu gülü yaradana şükür etmək üçün səcdəyə əyilirsən və sair... Amma bu əyilməklə o əyilməyin arasında poladdan da möhkəm bir əyilməzlik var.

Pulun, vəzifənin, şan-şöhrətin əydiyi adamın fizionomiyasında da dəyişiklik baş verir. Fikir vermisinizsə, bu adamlar vəzifəli, imkanlı, nüfuzlu adam gözəndə, özlərindən asılı olmayaraq, qədlərini əyirlər, əl sıxıb salam verəndə ikiqat əyilirlər. Yaşlaşdıqca da əyilməkdən donqarlanırlar, qozbel olurlar ki, bunu sonradan tibbi müdaxilə, əməliyyatla da aradan qaldırmaq olmur. Necə deyərlər: qozbeli qəbir düzəldər...

## BAŞ NAZİR: GÜRCÜSTAN VƏ AZƏRBAYCAN İKİTƏRƏFLİ ƏLAQƏLƏRİN MÖHKƏMLƏNDİRİLMƏSİNƏ XÜSUSİ DİQQƏT YETİRİR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə çox yaxşı görüşüm oldu. Gürcüstan və Azərbaycan ikitərəfli əlaqələrin möhkəmləndirilməsinə, həmçinin iqtisadi artımın gücləndirilməsinə xüsusi diqqət yetirirlər.

Bu barədə Gürcüstanın Baş naziri İrakli Qaribaşvili özünün X sosial şəbəkə hesabında yazıb.

Hökumət başçısı qeyd edib ki, hər iki xalqın mənafeyi naminə Gürcüstan və Azərbaycan ticarət, enerji, infrastruktur, davamlı inkişaf üçün potensial birgə layihələrin müəyyənləşdirilməsi üzərində işləyirlər.

## MARNEULİDƏ BEYNƏLXALQ MAARİF MƏKTƏBLƏRİNİN AÇILIŞI OLUB



Marneulidə Beynəlxalq Maarif Məktəblərinin təntənəli açılış mərasimi keçirilib. Mərasimdə Türkiyə Beynəlxalq Maarif Məktəblərinin baş direktoru Birol Akgün, Türkiyə milli təhsil və elm nazirinin müavini Ömer Faruk Yelkenci, Türkiyənin Gürcüstandakı səfiri Ali Kaan Orbay, İstanbul millət vəkili Tuğba Işık Ercan, Marneuli meri Kənan Ömərov, Gürcüstanın Təhsil və Elm Nazirliyinin nümayəndələri, digər rəsmi şəxslər, QHT rəhbərləri, iş adamları, ictimaiyyət nümayəndələri, valideynlər və gənclər iştirak ediblər.

Açılış mərasimində çıxış edən qonaqlar Marneuli şəhərində Avropa standartlarına uyğun inşa olunan yeni məktəb binasının istifadəyə verilməsini yüksək qiymətləndiriblər.

Bildirilib ki, Beynəlxalq Maarif Məktəblərinin əsas istiqamətlərindən biri parlaq gələcəyi olan gənclər yetişdirməkdir.

Qeyd olunub ki, Gürcüstanda fəaliyyət göstərən Beynəlxalq Maarif Məktəblərində tədris Gürcüstanın milli kurikulumuna uyğun aparılır.

Daha sonra qonaqlar məktəbin fəaliyyəti ilə yaxından tanış olaraq sinif otaqlarına baş çəkərək şagirdlərlə görüşüblər.

## PARLAMENT SƏDRİ: AZƏRBAYCAN GÜRCÜSTANIN BEŞ ƏSAS TİCARƏT TƏRƏFDAŞINDAN BİRİDİR




Ölkələrimiz arasında yüksək səviyyəli səfərlərin sayının artması bir daha sübut edir ki, Azərbaycan ilə Gürcüstan arasındakı strateji tərəfdaşlıq kağız üzərində deyil. Bizim hər gün üzərində işlədiyimiz və real nəticələri olan göstəricilərimiz var. Bu sözləri mətbuata açıqlamasında Gürcüstan Parlamentinin sədri Şalva Papuaşvili söyləyib. Onun sözlərinə görə, ən böyük nailiyyət dövlət və hökumət başçıları arasında olan mövcud xüsusi münasibətlərdir.

Ş.Papuaşvili bildirib ki, Azərbaycan ilə Gürcüstan strateji tərəfdaş kimi həm ikitərəfli, həm də beynəlxalq layihələr çərçivəsində fəal əməkdaşlıq edirlər. İki ölkə xüsusən bütün region üçün strateji əhəmiyyət kəsb edən Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri və Cənub Qaz Dəhlizi kimi layihələrdə çox fəal əməkdaşlıq edir.

Onun sözlərinə görə, Azərbaycan Gürcüstanın beş əsas ticarət tərəfdaşından biridir. 2023-cü ilin yanvar-avqust aylarında ölkələr arasında ticarət dövriyyəsi 980 milyon dollar təşkil edib. Bu da 2022-ci ilin səkkiz ayının göstəricilərindən 15,3 faiz çoxdur.

Parlamentin sədri deyib ki, Gürcüstan etibarlı tərəfdaş kimi Azərbaycan ilə Ermənistan arasında vasitəçi olmağa hazırdır. "Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Tbilisidə Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdən sonra bildirib ki, Gürcüstan regionda sülhün bərqərar olmasına öz töhfəsini verməyə və vasitəçi rolunu öz üzərinə götürməyə hazırdır. İnanırıq ki, bu görüş baş tutacaq və regionda dayanıqlı sülhə nail olacağıq", – deyə Şalva Papuaşvili vurğulayıb.

# TARİXİN ACI TƏKRARI



Bəlkə bu tipdə, amma müxtəlif başlıqları olan yüzlərlə, minlərlə yazıya rast gəlmisiniz. Müasir düşüncəli insanlar bu mövzuya dəfələrlə toxunublar. Kimisi qəzet, jurnal, televiziya vasitəsilə; kimisi təqdimatlar, lahiyələr, yarışlar hazırlamaqla; kimisi də öz ailəsinə, övladlarına, qohum-əqrəbasına, dost-tanışına bunun səhv olduğunu başa salmaqla bu mövzuda öz mövqeyini bildirib. Sözügedən bu mövzu isə qızların erkən yaşda evləndirilməsi, qadın hüquqları, qadın cinayətləri və sairdir. Əgər biz publisistika ilə məşğul olan hər hansı bir şəxsin yazılarını araşdırıb oxusaq nə vaxtsa bu mövzuya toxunduğunu və ya fikir bildirdiyini mütləq görərik. Elə bizim "Yeni Yol" qəzetinin yazarları arasında bu mövzuya toxunanlar az deyil. Bu gün onlara mən də qoşuluram.

Əslində, bu saydakı yazımın mövzusu tamam başqa idi, lakin 14 yaşlı yeniyetmənin evləndirildiyi, daha doğrusu, qaçırıldığı nişanlısı tərəfindən qətlə yetirildiyi acı xəbəri məni bu mövzuda yazmağa vadar etdi. Amma hadisəni lap başdan danışıb kiminsə yenidən qanını qaraltmaq niyyətində deyiləm. Çünki bu yazı yayımlananda bəlkə sözügedən hadisə çoxdan unudulmuş olacaq. Niyə unudacaqlar bilirsinizmi? Ona görə ki, bu cür hadisələri oxuyanda, görəndə, eşidəndə, rast gələndə təsirlənirik. Belə hadisələr bizi ağuşuna alır. Yalnız bu haqda fikirləşirik. Amma təəssüf ki, bu hal uzun müddət davam etmir. Bir müddət gündəmi zəbt etdikdən sonra heç yaşanmamış kimi ağıllardan buxarlanıb gedir.

Mən bizim bu mövzuda aciz olduğumuzu düşünürəm. Biz də, bizim qələmimiz də acizdir. Niyə acizik bilirsinizmi? Ona görə ki, neçə əsr keçib, biz hələ də heç nəyi dəyişə bilməmişik. On doqquzuncu əsrdə baş verən hadisələr bu gün də aktualdır. Seymur Baycan demiş, əgər biz bu gün də Mirzə Cəlinin, M.Ə.Sabirin yazdığı mövzularda yazırıqsa, deməli, heç nə dəyişməyib. Əgər bizim yazılarımız heç kimə təsir etməyibsə, kimsə onu dərk etməyibsə və yaxud oxuyub yenə də görməzdən gəlibsə, deməli, qələmimiz də acizdir. Bizi aciz qılan isə hörümçək toru bağlamış adətlərimiz və mentalitetimizdir – qanundan daha üstün tutduğumuz, neçə qurban verdiyimiz mentalitetimiz, qopa bilmədiyimiz adətlərimiz... Belə bədbəxt hadisələrin ən böyük günahkarı məhz onların əsiri olanlardır. Çoxları üçün bu əsir yeniyetmə qızcığazın anasıdır. Sosial şəbəkələrdə hansı şərh bölməsini açırsan hamı haqlı olaraq onu günahlandırır. Elə biri də mən.

Bəzi analar var qızlarına təhsildən çox cehiz verməyi özlərinə borc bilirlər. "Mən yaxşı gün görmədim, qızımı yaxşı yerə verim, ağ gün görsün" fikri ilə balalarının həyatını puç edirlər. "Bizim vaxtımızda belə olub, bizi də bu yaşda evləndiriblər" deyib qızlarını erkən yaşda evləndirirlər. Daş düşsün onların dövrlərinə. Elə bu dar düşüncəyə görə o qızcığazın gördüyü "ağ gün" qara torpaq oldu. Hələ bir utanmaz-utanmaz müsahibə də verir ki, mən bala vermirdim, əl çəkmədi. Bu, qızlarını erkən yaşda evləndirənlərin ən böyük yalanı və bəhanəsidir. Əgər o ana istəsəydi o çəkmədikləri əli qırardı. Qızını bu yaşda evləndirmək istəməyən ana qızı yeniyetməlik yaşına çatan kimi ona cehiz yığmağa başlamaz. Nə olsun, sənin qızın fiziki cəhətdən böyüyüb, yaşıdlarından seçilir, amma hələ uşaq ağıldadır. Onun hələ gəlinlikdən daha çox gəlinciyə maraq göstərdiyi yaşıdır. Təəssüf ki, bir ana olaraq o qadın bunu anlamayıb. Əslində ona heç ana da demək olmaz...

Sosial şəbəkələrdə ən böyük günahın o qadında olduğunu deyirlər. Oğlanın ailəsindən danışan yoxdur. Danışdırsan deyərlər biz camaatın uşağını zorla almadıq, elçi getdik, verdilər. Bir nəfər də demir ki, sizin ağlınız haradadır, 14 yaşlı qıza elçi gedirsiniz, düşünmürsünüzmü ki, o hələ uşaqdır. Sizin oğlunuz hara, o azyaşlı hara. Camaat özündən o qədər böyüyə əmi, dayı deyə müraciət edir. Bu dəfə də bu tərəf deyəcək ki, qızın o yaşda olduğunu bilmirdik. Bu da onların klassik yalanıdır.

Bu hekayə ümumilikdə yalanlarla doludur. Hamı hər şeyin yaxşı fərqində idi. Ali təhsillisindən tutmuş savadsızına qədər – hamı hər şeyi bilirdi. Lakin "bizim nə işimizə qalıb, özləri bilər, el adəti ilə nişanlayıblar, yaşı gələndə də toy edərlər" deyib susdular. Burada susanlar da günahkardırlar.

"Bizim nə işimizə" fikri ilə doğulub boya-başa çatan, çatdıran, içi mən qarışıq, hamı günahkardır. Biz klaviatura arxasında, ekran arxasında haqsızlıq qarşısında dillənməyi bacarırıq. Səsimizi çıxarmağımız üçün kimsə həyatını itirməlidir. Bədbəxtlik baş verməmiş bunun qarşısını almaq imkanımız olsa belə biz susmağı seçirik. İş-işdən keçəndən sonra şərh bölməsini doldurmaqla heç nə dəyişmir.

Haqq-ədalət onsuz da öz yerini tapır. Biz problemi kökündən həll etməliyik, bu cür gedişata DUR deməliyik. Yoxsa bu tarixin acı təkrarıdır. Bu cür mövzularda sosial şəbəkələrin şərh bölməsində aktiv olduğumuz qədər, həyatda da aktiv olmalıyıq, səsimizi çıxarmalıyıq ki, körpə həyatlar yarımçıq qalmasın.

**Çiyalə Osmanova**
*Tbilisi Dövlət Universitetinin hazırlıq kursunun tələbəsi*

# HƏR YARPAQ BİR XƏZANDIR



**Hacı Bəkiroğlu**
hacihaciyev@hotmail.com

İnsan qüsursuz bir şəkildə əşrəfi-məxluq olaraq yaradılmışdır. Uca Rəbbimiz "Biz həqiqətən insanı ən gözəl şəkildə yaratdıq" (Tin, 95/4) deyir. Rəbbimiz insana bir çox üstünlük bəxş etmişdir. Hər varlığın özünə xas bir yaradılış məqsədi vardır. Təfsirçi Raqib əl-İsfəhani insanın yaradılış məqsədini "Yer üzünü abadlaşdırmaq, yer üzündə ədaləti təmin etmək, Allaha ibadət etmək" şəklində təsvir edir. İnsanı insan edən xüsusiyyətlər isə doğru ilə səhvi, yaxşıyla pisi, gözəllə çirkini, faydalı ilə zərərlini, ədalətlə zülmü ayırd edə bilməsidir.

İnsan dünya aləmində əylənərkən zamanın necə keçdiyini anlaya bilmir. Zaman fərq etdirmədən bizi dəyişdirir və günün birində insan özündə meydana gələn yenilikləri izləyir. Ömrün zirvə nöqtəsi olan və bir çox şeyi sorğuladığımız yaşlılıq gəlib çatır. Və daha sonra insan bu dünyadakı vəzifəsini tamamlayaraq axirət yurduna köç edir.

İnsanın bu dünyadakı həyatını anlaşılan bir nümunə ilə ifadə etsək bir ağacın yarpağını misal göstərə bilərik. Ağacdan tumurcuq şəklində meydana gələn yarpaq günlər, aylar keçdikcə böyüyür, daha sonra qocalıq çağına gələrək saralıb solur və günün birində ağacdan qopub ayrılaraq torpağa qovuşur, çürüyərək dünyadakı vəzifəsini yerinə yetirir, yəni hər yarpaq bir xəzan olur. İnsan həyatı da belədir. Ancaq insan Allah tərəfindən dəyərli bir varlıq olaraq yaradıldığı üçün ona bəzi vəzifələr və məsuliyyətlər də verilmişdir. İnsan da bu vəzifələri və məsuliyyətləri yerinə yetirdiyi təqdirdə dəyər qazanmış olur. İnsanı yarpaqdan ayıran əsas xüsusiyyət isə onun Allah qarşısında hesabat verəcək olmasıdır.

Odur ki, bu dünyada yaşadım bitdi anlayışına qapılmamaq lazımdır. İnsan yaşadığı müddətdə etdiyi ibadətləri, yardımsevərliyi, təqvası, insansevərliyi və saymaqla bitməyəcək gözəl davranışları nəticəsində Allahın vəd etdiyi əbədi yaşam olan cənnətdə də həyatını gözəl nemətlər içində davam etdirəcək.

Mövlanadan həyat nədir deyə soruşmuşlar. Mövlana da "həyat bir pəncərədir, hər kəs o pəncərədən baxıb keçər" demişdir. Həqiqətən də insanlar doğulur, yaşayır və ölürlər – bundan başqa bir gerçək yoxdur. Əhəmiyyətli olan geridə buraxılan izlərdir. Bu izlər də elə bir izdir ki, biz öldükdən sonra haqqımızda yaxşı və ya pis danışılacaqları bəlli edəcək. Həmçinin sabah Allah qarşısında hesab verərkən yerimizin cənnət və ya cəhənnəm olacağının səbəbkarı olacaq.

İnsan bu dünyaya bir dəfə gəlir, həyatı bir dəfə yaşayır. Bu həyat əsnasında da onun qarşısına seçimlər qoyulur; Yaradanın qoyduğu nizama, yəni əmr və qadağanlara uyaraq əhsəni-təqvimə – uca bir məqama yüksələcək, ya da şeytan və nəfsə uyaraq əsfəli-səfilin – aşağıların aşağısına çevriləcək. Yenə də ifadə edək ki, insan ömrü bir yarpağa bənzəyir, hər yarpaq isə bir xəzandır. Ancaq bu xəzan olmuş yarpaqlardan eləları vardır ki, insanlar evlərinin ən gözəl yerinə yerləşdirərək gözəl suvenir kimi saxlayırlar, eləri də vardır ki, ayaq altında əzilərək yox olurlar. İndi seçim etmək öz əlimizdədir. Bunun üçün də ömür təqvimindən keçən hər dəqiqəni, hər anı elə yaşamalıyıq ki, içimizin gözəlliyi, əməlimizin gözəlliyi bizləri evlərə bəzək verən yarpaq kimi daim xatirələrdə saxlasın və ən əsası, Allahın qarşısında üzümüzü ağ etsin, Peyğəmbər əfəndimizin üzündə təbəssüm yaratsın.

Sonda isə məşhur bir musiqidəki sözləri ifadə edərək sizlərə xoş günlər diləyirəm:

"Tökülən hər yarpaq bir ömür kimi
Gedib dönməyən günə bənzəyir"...

## TƏHSİL NAZİRİNİN DİREKTORLARIN SEÇİLMƏSİ İLƏ BAĞLI "İCTİMAİYYƏTİ ÇAŞDIRAN BRİFİNQİ" HAQQINDA ŞALVA TABATADZENİN 5 AÇIQLAMASI



Mülki İnteqrasiya və Millətlərarası Əlaqələr Mərkəzinin rəhbəri, təhsil sahəsi üzrə ekspert Şalva Tabatadze Gürcüstanın təhsil və elm naziri Giorgi Amilaxvarinin brifinqinə rəqəmlərlə cavab verib.

Bildirib ki, G.Amilaxvarinin 10 oktyabrda məktəb direktorlarının təqdim edilməsi məsələsi ilə bağlı verdiyi məlumat ictimaiyyəti çaşdırmağa xidmət göstərib və "birnamizədli seçkilər şəraitində qərarı yenə də məktəblər qəbul edirlər" mövqeyi həqiqətə uyğun deyil.

G.Amilaxvarinin sözlərinə görə, nazirlik üçün məktəblərdə direktorların namizədliyinin təqdim edilmə prosesinin siyasiləşdirilməsi qəbuledilməzdir və direktorun seçilməsi qərarını Qəyyumlar Şurası qəbul edəcək. Məktəblərin 71 %-də isə yalnız 1 namizəd qeydiyyatdan keçib. Nazirlik istəsə də bu göstəricini dəyişə bilməzdi.

Şalva Tabatadze konkret rəqəmlər qeyd edib və nazirliyin fəaliyyətində, eləcə də namizədlərin təqdim etmə prosesində olan problemləri bildirib. Vurğulayıb ki, həmin problemlər məktəblərin seçim azadlığını məhdudlaşdırır, nəticədə Təhsil Nazirliyi əlavə 350-yə yaxın məktəbi sertifikatlaşdırılmış direktordan kənar qoyur:

"Nazirin ictimaiyyəti çaşdıran brifinqindən bəzi açıqlamalar, bu zaman o, tənqidçiləri əvvəlcə məsələdə əmin olmağa çağırıb:

1. Məktəb direktorluğuna 1409 nəfər sertifikatlaşdırılmış namizəd var idi. Onları məktəblərin Qəyyumlar Şurasına təqdim edə bilərdik. Nazirlik Qəyyumlar Şurasına 927 namizəd təqdim edib, yəni 482 sertifikatlaşdırılmış namizəd komissiya tərəfindən bloka salınıb. Həmin komissiya real olaraq Qəyyumlar Şurasının səlahiyyətini mənimsəyib. Çünki bu seçkilərin əsası məhz odur ki, Qəyyumlar Şurası özləri baxış və strateji planlardan irəli gələrək onlara uyğun olan namizədlərin kimliyinə qərar versinlər. Komissiya bu məsələyə müsahibə ilə qərar verə bilməzdi, çünki hər məktəbin kontekstini bilmir və qərar da verməməlidir. Real olaraq bu komissiyanın fəaliyyət məqsədinin nə olduğunu hamımız yaxşı gördük.

2. İlkin seçkilərə əsasən 382 məktəbdə direktorluğa 1-dən artıq namizəd qeydiyyatdan keçmişdir. Onlar arasında 10-dan çox və 16 namizəd olan məktəblər də var idi. 894 məktəbdə yalnız 1 namizəd, 798 məktəbdə isə ümumiyyətlə namizəd yox idi. Müsahibələr nəticəsində 1-dən çox namizədin qeydə alındığı və faktiki olaraq seçim imkanı olan 382 məktəbə nazirlik nadir istisnalarla yalnız 1 namizəd göndərib. Yəni 382 məktəbdə Qəyyumlar Şurasına seçim imkanı verilməyib.

3. Namizədlərin qeydiyyatdan keçməsindən irəli gələrək 1276 məktəbdə sertifikatlaşdırılmış direktorun olmasına imkan var idi. Bugünkü göstəricilərə görə, yalnız 927 məktəbdə sertifikatlaşdırılmış direktor ola bilər. Yəni nazirlik müsahibə nəticəsində 350-yə yaxın məktəbi, onsuz da ixtisaslı kadrların az olduğu şəraitdə, əlavə olaraq sertifikatlaşdırılmış rəhbərdən kənar qoyub.

4. Qəyyumlar Şurasının yeganə səlahiyyəti təqdim olunan namizəd onların tələblərini qane etmirsə onu direktor olaraq seçməməkdən ibarət olur. Ancaq bu da baş tutmayacaq prosesdir, çünki nazirin Qəyyumlar Şurasının seçmədiyi namizədi öz mülahizəsinə uyğun olaraq təyin etmək səlahiyyəti var. Buna görə də birnamizədli seçkilər şəraitində qərarı məktəblərin qəbul etməsi, əlbəttə, həqiqətə uyğun deyil.

5. Cənab nazir, aydınlaşdırmışıq və buna görə də təhsilə, inkişafa, demokratik və təhsilli Gürcüstana, ölkənin gələcəyinə ürəyimiz yandığı üçün də tənqid edirik.

## 1160 İCTİMAİ MƏKTƏBİN YENİ DİREKTORU OLMAYACAQ




Gürcüstan Təhsil və Elm Nazirliyinin məlumatına görə, bəzi ictimai məktəblərin Qəyyumlar Şurasına seçim üçün təqdim olunacaq direktorluğa namizədlər və müvafiq siyahı təsdiqlənib.

Məlumdur ki, Tbilisinin 152 məktəbində yeni rəhbər təqdim olunub, İmereti və Samtsxe-Cavaxetinin 225 məktəbində yeni namizədləri təqdim edəcəklər. Quriya, Sameqrelo-Zemo Svaneti, Raça-Leçxumi və Kvemo Svanetidə, eləcə də Şida Kartlinin 246 məktəbində şuralar namizədləri müzakirə edəcəklər. Kaxeti, Mtsxeta-Mtianeti, Kvemo Kartlinin 228 ictimai məktəbində, Acarada isə 76 ictimai məktəbdə direktorları təqdim edəcəklər.

Mövcud məlumatlar o deməkdir ki, ümumilikdə 2087 ictimai məktəbdən 927 məktəbdə direktorluğa namizəd təqdim olunacaq, qalan 1160 ictima məktəbin isə yeni direktoru olmayacaq.

## GÜRCÜSTANDA 2080 MƏKTƏBDƏN 1040-I STANDARTA UYĞUN DEYİL



Təhsil və Elm İnfrastrukturunun İnkişafı Agentliyinin direktoru Levan Suxitaşvili təhsil komitəsinin iclasında Təhsil və Elm İnfrastrukturunun İnkişafı Agentliyinin fəaliyyəti barədə danışaraq məktəblərdə çatışmazlıqların çox olduğunu qeyd edib.

Bildirilib ki, son bir il ərzində 40 ictimai məktəbdə tam bərpa işləri aparılıb.

"Təxminən 200-ə yaxın məktəbdə infrastruktur yaxşılaşdırılıb. İl ərzində 2 yeni məktəbin tikintisi tam başa çatıb. İlin sonunda isə 3 məktəbin tikintisinin başa çatdırılması planlaşdırılıb. Cari ilin dekabrına qədər həmin məktəblər mərhələli şəkildə açılacaq", – deyə L.Suxitaşvili bildirib.

Onun sözlərinə görə, məktəblərin 50 faizində infrastrukturun vəziyyəti qənaətbəxşdir. Bu isə o deməkdir ki, 2080 ümumtəhsil müəssisəsindən 1040-ı standarta uyğun deyil.

"Gürcüstanda 2080 məktəb var, bu məktəblərin 50 %-nin infrastruktur vəziyyəti qənaətbəxşdir. Çox çatışmazlıqlarımız var, amma 2027-ci ildə bu istiqamətdə ölkədə problemin olmamasını planlaşdırırıq" – L.Suxitaşvili deyib.

## GÜRCÜSTANDA 436 İCTİMAİ MƏKTƏB ODUN SOBASI İLƏ QIZDIRILIR



Qaz təchizatı sistemi olmayan ictimai məktəblər ekoloji odun – briketlə təmin olunacaqlar. Təhsil və Elm İnfrastrukturunun İnkişafı Agentliyinin rəhbəri Levan Suxitaşvili bildirib ki, 2023-2024-cü tədris ili üçün 436 ümumtəhsil müəssisəsi üçün briket artıq alınıbdır.

Bildirilib ki, agentlik 4,961.6 ton briket alıb. Ekoloji odunun alınması üçün agentlik 7 509 400 lari ödəyib.

Levan Suxitaşvili yaxın günlərdə məktəblərin həmin yanacaqla təmin olunacaqlarını deyib.

"Qazla təmin olunmamış məktəblər briketlə təmin olunacaqlar. Bu, preslənmiş yonqardır, ancaq biz tələb edirik ki, mütləq ağac yonqarı olsun. Briketlər əsasən dağlıq məktəblərə paylanacaq və bu, çox effektivdir", – deyə L.Suxitaşvili bildirib.

Briket ekoloji baxımdan təmiz yanacaq vasitəsidir. Odun əvəzinə ondan istifadə etmək mümkündür.

## 2024-CÜ İLDƏN 1 DEKABRA QƏDƏR 6 YAŞI TAMAM OLMUŞ UŞAQLAR BİRİNCİ SİNFƏ QEYDİYYAT OLUNA BİLƏCƏKLƏR



2024-2025-ci tədris ilində 1 dekabra qədər 6 yaşı tamam olmuş uşaqlar birinci sinfə gedə biləcəklər.

Təhsil və elm naziri Giorgi Amilaxvarinin sözlərinə görə, bu dəyişiklik könüllüdür və əgər valideyn və ya uşağın qəyyumu hesab etsə ki, bu yaşda uşaq məktəbə hazır deyil, o zaman uşağı bağçada saxlaya və növbəti il məktəbə apara bilər.

Həmçinin 2025-2026-cı tədris ilindən, tədris ilinin başlama tarixinin növbəti günündən 31 dekabra qədər 6 yaşı tamam olan uşaqlar da məktəbə qeydiyyat oluna biləcəklər.

Qeyd edək ki, 2023-2024-cü tədris ilində 1 noyabra qədər 6 yaşı tamam olmuş uşaqlar 1-ci sinfə qeydiyyat oluna bilərdilər.

*Səhifədəki məlumatlar "etaloni.ge" və "edu.aris.ge" saytından götürülüb.*
*Gürcü dilindən tərcümə etdi:* **Aynurə Əliyeva**

# GÜNAHI ÖZÜMÜZDƏ AXTARAQ



Xeyli vaxtdır dayanmışam manitor qarşısında. Düşünürəm... Birinci dəfədir ki, yazmaq istəyirəm, amma mövzu o qədər qarışıqdır ki, haradan başlayım bilmirəm...

Adətim üzrə yenə də "o yandan" başlayacam, çünki şagirdlərim deyir ki, müəllim, siz yeni dərsi izah edəndə, o yandan izah edib təzə mövzuya daxil olanda elə sinifdəcə öyrənirik dərsi. Deyirəm, bəlkə özümü müəllim, oxucumu da şagird hesab edim. Bəlkə sinifdə dərsi öyrənən şagirdlərim kimi, ehtiyacı olan cahillərə ibrət olası nə isə aşılaya bildim...

Yox, mən də hamı kimi birbaşa Ləmbəli hadisəsindən başlayıb günahkar oğlandan, yazıq qızdan danışmayacam. Qəti! Amma başqa yöndən, öz baxışımla, vicdanla və həqiqətlə...

Ümumiyyətlə, həyatda səbəbsiz heç bir nəticə yoxdur. Heç nə heç vaxt heç nədən baş vermir. O adama ağıllı deyərdim ki, atdığı addımın səhvində özünün günahını görə bilsin və nəticə çıxarsın.

Başlayaq o yandan.

Bəxtiyar Vahabzadənin "İllər" şeiri var, mənası odur ki, uşaq gündə on kərə güzgüyə baxaraq nə vaxt böyüyəcəyini gözləyir. Daim illərdən şikayət edir, qovmaq istədiyi illəri sonralar saxlamağa çalışır.

Uşaqlar tez böyüməyə çalışır, xüsusən də yeniyetmə dövründə. Hələ onlara yaxşı yol göstərən yoxsa, bu, tək valideynin, doğmaların yox, əsas da müəllimlərin, yaxşı dost, qonşunun təsiri ola bilər. Uşaqlar həmişə kənar şəxsləri daha yaxşı dinləyirlər. Bu, psixologiyadır. Sanki başqasının gözüylə özünə baxır.

Biz təbiətin bir parçasıyıq. Hər addımımızda öz əksini tapan müqayisələr əhatəsindəyik, fəqət fərqində deyilik. İllərin fəsilləri kimi ömrümüz də fəsillərə bölünür.

Uşaqlığımız bərkə-boşa düşərək daha da bərkiyən qışdan çıxır, axar-baxarlı, güllü-çiçəkli yaza gəlir. Bu da, gənclikdir. Gah coşur, daşır, çağlayır, gah da sükuta qərq olur. Yazdan sonra barlı-bərəkətli, bəhrəli yay gəlir ki, bu, ömrümüzün orta yaş dövrünü xatırlatsa da, xəzanın gəlişi artıq ömrün sona doğru istiqamətini göstərir. Bu yol elə yol ki, axarı heç nə dəyişə bilməz. Təbiətin yaradılışı elə düzülüb ki, hər şey öz yolunda gözəldir. Nəyisə dəyişmək istəsən domino daşı kimi bütün axar pozulacaq. Gərək toxunmayasan. Toxunuş məhvə aparır. Məsələn, qışın soyuğunda qar altından boylanan yaz çiçəyi heç vaxt qışda yaşaya bilməz, yay meyvəsi yazda ola bilməz, süni yetişdirməklə nə bir meyvə, nə tərəvəz heç vaxt təbii dadı verə bilməz. Təbiət adlanan dünyasında yabançı kimi yaşayır ömrünü, başa vurub gəldiyi kimi də gedir, çünki o, heç vaxt təbii axara qoşula bilmir.

İnsanlar da belədir. Ömrün fəsillərini qarışdıranda həyatı qarışır. Olmazmı, uşaqlığını uşaq kimi, gəncliyini gənc kimi, orta yaşını ana kimi, qadın kimi, qaynana kimi yaşayaraqdan ömrün payızına gedəsən. Dönüb geri baxanda insan kimi yaşamışam deyəsən...

Bir yığıncağa gedəndə bər-bəzəyi ilə sanki yarışa qoşulan yeniyetmələri görüncə, dəfələrlə siz onsuz da gözəlsiniz, əlavəyə ehtiyacınız yox, deyə söz vursam da, yəqin ki, yaşlarının təsiriylə məsləhətim xoşlarına gəlməyəcəkdi. 14, 15 yaşlı qızlar elə geyinir, bəzənirlər ki, 20-25 yaşlı qızları xatırladırlar. Artıq onlar uşaqlığı sona qədər yaşamadan birbaşa ikinci pilləyə istiqamətlənirlər.

Mən şagirdlərə saçınızı hörün, lent bağlayın, uşaq oyunlarını oynayın deyəndə, bax beləcə uşaqlığı yaşayın deyirdim. Uşaq çörəyə "pəpə" deyənə deyilmir, o – körpədir, tumurcuqdur, siz – fidansınız, mələksiniz; o saf dünyanızla bu fani dünyada insanlığın dadını çıxarın.

Əlbəttə, mənim tək deməyim əbəsdir, gərək valideyn də mən deyəni deyə ki, valideyn–müəllim–şagird üçbucağı nəticə versin. Toya 13, 14 yaşlı qızı gözəllik salonundan aparan ana gözəl görünən qızıyla qürurlananda, çox yəqin ki, onun övladı üçün narahat olan müəllimin fikri önəmsiz olacaq. O şagird də müəllim nəsihətinə qarşı biganə olacaq. Müəlliminin öz qızını hörüklü, sadə geyimli, uşaq kimi yönləndirməsi də, onların təbirincə, "geridə qalmışlıq" əlaməti ola biləcək.

Gəlin vicdanla düşünək: 25-30 yaşlarında gənc oğlan evlənmək istəyir. Bizim qızları isə yalnız toy-nişanda seçə bilirsən. Bu, aksiomdur, yəni başqa variant yoxdur. Əgər ana qızını dəbdəli, bəzək-düzəkli baxış müsabiqəsinə qoşursa... Axı istənilən oğlan təsadüfi gördüyü bir qızı bəyənəndə ilk baxışda alnına yaş yazılmır ki??? Yaşını xatırlatmayan o qız da artıq axara qoşulub – yeniyetmə yaşında, saf, boş qəlbinə kiminsə hakim olmağı çox asan olur. Bu, sevgi deyil. Qəti! Bu, bir tərəfin şüurlu evlənməsi, ailə qurmaq istəyidir, bunun üçün də ağıllı, abırlı bir həyat yoldaşı seçimidirsə, o yeniyetmə qız üçün maraqdan başqa heç nə deyil. Çünki sevgi, ailə anlamı hələ o qıza çatmayacaq. Onun dünyası övladını uşaqlıqdan "arvadlığa" ata biləcək valideylərin ölçüsü qədər olmalıdır.

Elədirmi?

Bütün bu gerçəklikləri övladına başa salacaq ana elə əllə sayılacaq qədər ola bilər yəqin.

Sosial şəbəkələri zəbt edən Lənbəlidəki faciə günlərdir danışılır, yazılır. Maraqlı o tərəfidir ki, hamı yekdilliklə oğlanın həpsini tələb edir, təhqir edir, günahlandırır, "uşağa tamah salan yaşlı" kimi təsvir olunur (bu cümlə mənim deyil). Elə bil Məşədi İbadla Gülnazın fərqindən danışırlar...

Mən o ailələri tanımıram və haqq üçün danışıram. Əvvəla oğlanın yaşı 28-30 aralığında yazılmışdır. Bu nə qoca, nə də biabırçı yaş deyil. Anladığım qədər elçilik olub, nişan olub. Sonra iki ay imiş qız qaçırılıb. Əlbəttə, çox pis hadisədir, xüsusən də qızın ölümü, amma ədalətlə yanaşaq dedimsə, sadəcə müzakirə edək. Bəs qızının bu izdivacını iki ayda o valideyn necə qəbul etdi? Deməli, sonluq faciə olmasaydı susacaqdı. Bəs ətraf?.. Vəssəlam. Şərhə ehtiyac yoxdur.

Faciə baş verməsə yüzdən biri olacaqdı. Yenə də analar qızını bəzəyib "qızlar bulağına" – toya çıxaracaqlar, yenə erkən evlilik olacaq, yenə yeniyetmə qızlar uşaqlıqdan arvadlığa atılacaqlar, yenə ailə anlaşılmazlıqları səbəbindən münaqişələr olacaq, yenə özləri hələ uşaq ikən tərbiyəyə, istiqamətə möhtac analar natamam övlad böyüdəcəklər – nəsihətsiz, savadsız... Bax beləcə az yaşında formalaşmamış orqanizm az yaşında sıradan çıxacaq, 40 yaşa çatmamış 40 problem yaşayacaq. Yenə vəssəlam.

Son olaraq mütləq Təhsil və Elm Nazirliyi qarşısında məsələ qaldırmaq lazımdır ki, məktəblərdə xüsusi saatlar ayrılsın: ailə həyatı, etika, estetika, sağlamlıq, mənəviyyat... Çünki uşaqlar bu kəsirlə böyüyürlər. Ailənin nə demək olduğunu bilmədən ailə qururlar, hansı ki onlarda sadaladığım bütün əlamətlər çatmır.

Ailə dəyərini, məsuliyyətini, sabahını, ana olmaq məsuliyyətini və öz sağlamlığını düşünməyən uşaq necə sabaha övlad böyüdə bilər. Təbii ki, hamı ali təhsil almalı deyil ki, orta təhsili başa vurmaq da kifayətdir. Yetər ki, hələ məktəbdə ikən ailə müntəxəbatı tədris olunsun, çünki şagirdin təhsilində bu mövzu labüddür.

P.S.

Mən erkən evliliyə qarşı dəfələrlə layihə hazırlayıb, müzakirələr aparmışam. Dediyim kimi, üçbucaq olmalıyıq və bu gerçəklik məktəbdə dərs saatıyla təbliğ olunmalıdır!

**Esmira Ələkbərli**
*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# NƏNƏMİN DÜYÜNÇƏLƏRİ



Nənəm saxlanccıl arvad idi. Hər şeyi qənaətlə işlədərdi. Allahın suyunu belə israf etməzdi.

Nənəmin ehtiyatda həmişə nələrisə olurdu. Nənəmin hardasa saxladığı pulu var idi. Hardasa deyəndə də nənəmin bizdən gizlini olmazdı. Nənəm pulunu elə yükdəki yorğan-döşəyin arasına dürtərdi. Onun pulu yastığın altında olardı, işlətmədiyi qab-qacağın içində olardı. Cib xərcliyini boynundan asdığı kiçik ağzıbüzməli kisəsində saxlayardı, bəzən cib yaylığının ucuna bağlayardı. Hərdən kağız əskinasları corabının içinə də qoyardı.

Nənəmin pulları beləcə dağınıq, ora-bura səpələnmiş vəziyyətdə idi. Nənəm tez-tez pulunu itirirdi, qoyduğu yeri yanılardı. Bəzən biz də onun itiyini axtarmağa məcbur olardıq. Pul da elə bil yağlı əppək olub, göyə çıxırdı, tapılmırdı ki, tapılmırdı. Nənəm bu il itirdiyini gələn il də tapa bilərdi və ya heç vaxt.

Nənəm maliyyə məsələlərini itirə-itirə yola verirdi.

Hərdən qonum-qonşuya, qohum-əqrabaya borc verdiyi pulu unudan nənəm, kimə verdiyini xatırlayanda uşaq kimi sevinirdi. Hərdən aldığı borc pulu qaytaranları yadına salıb, onlara alqış da edərdi. Elə bil nənəm gedib onlardan borc alıbmış, indi də borcunu qaytarıb dil-ağız edirdi. Nənəm borca gələni boş qaytarmazdı, varına yox deməzdi.

Nənəm yazı-pozu bilmirdi. Savadsızlığı ləğv etmə kursunda bir neçə hərf, bir neçə rəqəm yazmağı güc-bəla öyrənmişdi. Köhnə pulla təzə pulu qarışdırırdı, məsələn, on manata yüz manat deyirdi.

Nənəm imrənci adam idi. Qışlığa lazım olan ayın-oyunu ifçin-ifçin yığar, taxta qutulara, tərəcələrə yığıb saxlayardı. Rəngarəng torbalarda onun səpmək üçün toxumları olurdu, lobya-noxud torbaları böyüklüyü ilə digərlərindən seçilirdi.

Nənəm müxtəlif meyvələrdən qax qoyardı. Ərik qurusunu sinilərə düzərdi. Yetişmiş əriklərin ağzını ayırar, çiyidlərini götürərdi. Əriyin quruması uzun çəkirdi. Eşiyə çıxarı, içəri aparı beş-on gün vaxt alırdı. Quruyan əriklərin ağı ayrı, sarısı ayrı torbalara yığılırdı. Qurumuş ərik çiyidləri də ayrıca torbalara toplanırdı. Nənəm qışda ərik qurusundan, çiyiddən ovuc-ovuc bizə verərdi, yanında uşağıyla, nəvəsiylə gələnlərə verərdi. Biz də bu çərəzləri sevinə-sevinə dişimizin başına qoyub, ağzımızı dada gətirirdik.

Nənəm mövsümündə gilənardan, almadan, armuddan, gavalıdan, xirnikdən də qurudub, qış ehtiyatı görərdi. Dilimlənmiş almanı, armudu iynəylə sapa düzüb qurudardı. Nənəmin bu qax düzümləri dildə-ağızda deyilirdi, adla idi.

Nənəmin yığamatı bunlarla bitmirdi. Əldamının divarına vurduğu mismarlardan əvəlik hörükləri asılırdı. Qışda əvəlikdən bişirilən isti əvəzsiz olurdu. Niyəsini deyimmi? Əvəlikli isti soyuqdəymənin dərmanı idi. Burnunu çəkən, boğazı gələn oldumu nənəm isti qazanını ortaya çıxarar, maş lobyasını ayrıca qaynadıb bişirər, umacını hazırlayar, bəzən içərisinə cızdax, qovurma da qatardı.

Əldamına nənəmin bibər düzümləri də başqa bir gözəllik bəxş edirdi. Hardasa bir qom üzərlik, bir dəstə qaymaqçiçəyi, yarpız asması da gözə dəyirdi. Ayrı-ayrı bez parçalarında mənim unutduğum nələrsə olurdu. Nənəmin bu düyünçələrinin mistik bir enerjisi vardı. Əldamında mövcud olan xoş ətir bu mistikanı daha da gücləndirir, bu kiçik məkana əlavə əsrarəngizlik verirdi.

Buradakı xoş ətri payız gələndə qış üçün ağaclardan dənə-dənə toplanmış, divardan, tavandan asılmış payızlıq alma, armud, heyva salxımlarından yayılan qoxu daha da artırırdı. Ağacdan kiçik budaqları ilə qoparılmış heyva, nar dəstələrinin asıldığı divarların, tavanın yaratdığı mənzərə buranın xoş ətri ilə qəribə şəkildə uzlaşırdı.

Nənəm unutqan idi, saxladığı bir şeyi günlərlə axtarırdı. Bu axtarışlar ona özünün saxlanclarını, dür-düyünçələrini, torbalarını gözdən keçirmək, irdələmək, qurd düşüb-düşmədiyini, siçanların dəyib-dəymədiyini üzə çıxarmaq üçün gözəl fürsət verirdi. Nənəm xarab olan məhsulları ayırır, yığamatını sahmana salırdı.

**Afiq Muxtaroğlu**

# MƏNFİ İNSANLARIN HƏYATIMIZDAKI ROLU



Bəzi insanlar həyat yolundakı səyahətimizin bir parçasıdırlar, amma çatacağımız nöqtə deyillər. Şokolad dadlıdır, amma şokoladı yeməyə qatsaq xoşagəlməz dadı olar, həyatımızdakı bəzi insanlar kimi. Kimsə özünə görə mükəmməl bir insan ola bilər, amma sizin həyatınızda bir rol tapa bilməz. Müəyyən müddət sonra həyatımıza yeni transfer edirik. Yeni transfer olunmuş bu şəxsə 1 nömrəli sıranı veririk və o, həyatımızda bir çox dəyişiklik edir.

Uşaq vaxtı biz yerə yıxılanda, dizimiz daşa dəyəndə və ya hansısa bir yerimizə nəsə olanda ağlayardıq. Bizə ancaq fiziki yaraların zərər verə biləcəyini düşünərdik. Sözlərin bizə fiziki təsir göstərib zərər verə biləcəyini anlamazdıq. Sonra böyükdükcə fiziki yaraların bir müddət sonra tamam sağaldığını, ancaq mənfi sözlərin insanda ömürlük yara olaraq qala biləcəyini anladıq. Valideynlərimizin, böyüklərimizin, müəllimlərimizin, qohum-əqrabalarımızın nəsə bir səhv etdikdə dediyi sözlər artıq bir şillə ağrısından belə təsirli olmağa başladı.

Bəzilərimiz o yaranı almamaq üçün səhvlərimizdən qaçmağı seçirik. İnsanlar ancaq ona müsbət şərhlər bildirsin deyə onların xoşuna gələn nə varsa etməyə çalışır. Bəzilərimiz isə bunu bacara bilmir, hər zaman "xalxın" uşağına bax, bir də mənimkinə" cümləsi ilə üzbəüz qalır.

Biz insanlar pozitiv, yaxşı sözlərlə müqayisədə mənfi, xoşagəlməz sözləri daha uzun müddət yadda saxlıyırıq. Bunun səbəbi mənfi emosiyaların bizə müsbət emosiyalardan daha çox təsir etməsidir.

Dostunuz, sinif yoldaşınız, qohumunuz, qonşunuz yaxşı bir insan ola bilərlər. Ancaq bu o demek deyil ki, bu insanın sizin həyatınızda da yaxşı rolu olmalıdır. Bəzən bunu həyat özü çətinləşdirir. Başqasının həyatında müsbət rolu olan şəxsin sizin həyatınızda mənfi rol oynaması normal bir şeydir. Onlardan uzaqlaşmağın səni dəyər bilməz və ya pis bir insan etməz. Bu sənin həyatındır, həyatına qatacaqlarına da sən qərar verə bilərsən. Həyatında səni anlamayan insanlar varsa, onların səni başa düşmədiklərini bilməyinə rəğmən yenə də özünü yoraraq açıqlamağa çalışmaqdan əl çəkməlisən. Bəlkə bu, yalnızlıqdı, bəlkə bu, ətrafında daha az insan deməkdir, amma ən azından doğru etdiyini bilmək sənə hüzur və sakitlik verəcək. Hüzurlu bir həyata sahib olmaq ətrafınızda yarım olan insanların olmasından daha çox qiymətlidir.

Sizi olduğunuz kimi qəbul etməyən insanlara, haqqınızda yaxşı düşüncələri olmayan insanlara özünüzü qəbul etdirmək əvəzinə özünüz özünüzü olduğunuz kimi qəbul edin. Gecə saatlarına qədər onların lazım olmayan, gərəksiz dediyi sözləri özünüzə dərd edib fikirdən yata bilməməyin əvəzinə daha faydalı məlumatlarla maraqlansanız, hamını razı etmək əvəzinə özünüzü razı etməyə çalışsanız, duyğularınızı, hisslərinizi basdırmaq əvəzinə onları ifadə etməyə başlasanız, xətalarınıza görə özünüzü günahlandırmaq əvəzinə onlardan dərs çıxartsanız daha xoşbəxt ola bilərsiniz...

İnsanların əksəriyyəti bircə onların özlərinin yox, dünyada olan digər hər şeyin dəyişəcəyini gözləyər.

Həyatda kiməsə görə dəyişmək olar. Amma o insanın kimliyi əsasdır. Sevdiyimiz birinə görə pis xasiyyətimizi dəyişə bilərik. Başqa heç vaxt...

Çalışmalıyıq ki, cəmiyyətdə də bizi olduğumuz kimi sevsinlər. Əsas odur ki, insanlığımız dəyişməsin. Çox pozitiv, şən bir insan qəddar, ağır, həyatla arasında bir həyəcanı olmayan bir insana çevrilməsin.

**Aytən Fətullayeva**
*Tbilisi Dövlət Universitetinin Dəqiq və təbiət elmləri fakültəsinin birinci kurs tələbəsi*



# "ƏNƏNƏVİ" YAS MƏRASİMİ

Biz adət-ənələrimizə çox bağlıyıq. Bizim üçün ən başlıcası adət-ənələrimizdir. Belə ki, yas mərasimlərini, toyu, bayramları və s. adət-ənələrimizə əməl edərək keçiririk.

Yas mərasimləri ilə bağlı adət-ənənələrimizə diqqət yetirmək istəyirəm. Vəfat edən şəxsin ailəsinə başsağlığı verdikdən sonra otururuq və əsil mərasim də elə bundan sonra başlayır. Düzdür, hər kəs ağlayır, amma kim vəfat edib həmin şəxsi deyil, hərə öz vəfat edənini yad edib ağlayır. Bu da bir müddətə qədər. Sonra yas yeri qeybət yerinə çevrilir. Məsələm: "Eşitmiş olarsan, filankəsin oğlu arvad alıb. Heç bir-birinə yaraşmırlar da" və ya "O gülü qoyanın geyindiyi paltara bax, adam yas yerinə sarı rəng paltar geyinərmi" və sair və ilaxır.

Biz yas yerinə gedənlərin geyimini həmişə qara təsəvvür etdiyimiz üçün kimsə ağ və ya başqa rəngdə paltar geyindikdə ona pis baxırıq. Bu, bizim adətimizdir. Axı yas yerinə bəzənib, qara parıltılı, dırnaqlarda manikur və sairlə getmək olar. Belə insanlara baxıb heç nə demirik. Amma qara paltar geyinməyənlərə hər cür söz deyirik. Hətta ağlaşma tərzinə belə qarışırıq: "Yalandan ağlayır, özünü xalqa göstərir, heç gözündən yaş da gəlməyir".

Biz niyə belə dar düşüncəliyik?.. Bizim başqasının geyimində, ağlamağında nə işimiz var?..

Bir də elə qadınlar var başlayırlar vəfat edən şəxs haqqında özlərini maraqlandıran sualların cavabını ondan-bundan öyrənməyə: "Gülcahanın dediyinə görə, xəstəliyi var imiş. Az, nə xəstəliyi, Gülbadam dedi özü dərman içib, canına qəsd edib" və daha nələr-nələr... Amma əsl səbəbi bilmədən qonu-qonşudan, tanışdan, yaddan eşitdikləri sözlərin birinin üstünə də beşini qoyaraq danışırlar.

Tabutu qəbiristanlığa kişilər aparır. Bəs qadınlar nə iş görür bu vaxt? Qadınlar isə göz yaşlarını yuyub başlayırlar tez-tələsik kişilər gəlməmiş özlərinə süfrə açmağa. Vəfat edən şəxsin ən yaxınları başlayır hər şeyi əskiksiz etməyə. Süfrə açılarkən ən çox diqqət yetirilən şey: "O stola hər şeyi bol-bol qoyun. O boşboğazdı, gedib ora-da-burada deyəcək, heç yaxşı stol açmamışdılar"...

İndi isə bir az kişilərin abu-havasından danışım. Bildiyimiz kimi, qadınlardan sonra da kişilərə stol açılır, süfrələr düzəlir. Axı kişilər yorulub gələcəklər. Nə isə. Tək qadınlar deyil axı qeybət edən. Amma kişilər tamam başqa mövzulardan danışırlar. Kim mal-qara aldı, ev tikdirdi, toyda dava salan kimi idi, qəbri kim qazmışdı... Bir sözlə, hər cür söhbəti eşidə bilərik. Bu, çoxlarımıza təəccüblü gəlirmi? Xeyr, çünki artıq bu cür söhbətləri çox eşitmişik, ona görə də təəccüblənmirik. Belə söhbətlərin olacağını bilib, ona görə də hər şeyi əskiksiz etməyə çalışırıq.

Mənə çatmayan, başa düşmədiyim bir şey var, daha doğrusu çox şey var: nə üçün yas yerinə adamlar yığışmamış ağlaşma olmur. Elə ki başlayır insanlar yığılmağa, ən əsası da qadınlar, başlayırlar ağlamağa. Camaat yığılmamışdan qabaq ağlaya bilmirikmi? Niyə? Cammat toplaşanda özünü yerə çırpana bax, ağlamaqdan özündən gedənə bax... İnsanları gördükdəmi dərk edirsiniz vəfat edəninizin olduğunu? Yoxsa, bu bizim ənənəmizdirmi?..

**Validə Fətullayeva**
*Tbilisi Dövlət Universitetinin hazırlıq kursunun tələbəsi*

# "KOROĞLU"NUN ƏXLAQİ-ESTETİK ƏQİDƏSİ

**Elizbar CAVELİDZE**

*(əvvəli ötən sayda)*

İndi Koroğlunun fiziki bünyəsi barəsində bir neçə söz. O, uşaqlıqdanca fiziki qüvvəsi ilə fərqlənirdi: "Rövşən Rüstəm kimi igid, yeniyetmə cavan bir oğlan idi. On beş, on altı yaşı ya ola, ya olmayaydı. Amma elə güclü, elə qüvvətli idi ki, ağacın budağından yapışsa kökündən çıxardar, öküzün buynuzundan yapışsa yerindən dik qaldırardı" (Bax: "Koroğlu", səh. 9; "ქოროღლი", səh. 19). Yaşa dolmuş Koroğlunun zahiri görünüşünü görəndə isə insanın canına qorxu salırdı... Bir oğlandı, bir oğlandı ki, adam üzünə baxmağa ürək eləmir. Boy-buxun, qol-bilək. Süysünün əti qat-qat tökülüb, qara bığlar kəl buynuzu kimi "deşərəm, ha deşərəm" deyir. Gözlər tərlan gözü kimi oyur-oyur oynayır. Belində bir qılınc var ki, Allah göstərməsin!" (Bax: "Koroğlu", səh. 282; "ქოროღლი", səh. 321).

Müəyyən olunduğu kimi, Koroğlunun bu cür qorxu yaradan zahiri görünüşü, ümumiyyətlə, qəhrəmanlıq eposunun üslubu üçün xarakterikdir. Çünki o vaxtlar igidin fiziki zahiri görünüşü özünün gücü, qüvvəti ilə uyğun gəlməli idi. Daha doğrusu, qəhrəmanın hədsiz güc potensiyası onun gözəl obrazına uyğun gəlirdi ki, bu da oxucunun əxlaqi-estetik inancı və zövqü üçün məqbul idi. Qısası, cəngavərin cəngavərlik siması olmalı idi, trubadurun müvafiq zahiri görünüşü. Bu cür obraz sxemini Qərbin, eləcə də Şərqin xalq və istərsə də, klassik ədəbiyyatı tanıyır. Bu baxımdan aşıq paltarı geymiş Koroğlunun portreti də diqqət çəkir ki, yuxarıda gətirilən onun zahiri görünüşünün təsvirinin demək olar ki, eynisidir, bu da məhz elə onun aşıqlığına şübhə oyadır: "Bəli, eşitdilər ki, aşıq gəlib, hamı sevindi. Koroğlunu çəkib məclisə apardılar. Amma baxdılar ki, bu aşıq heç onlar görən aşıqlardan deyil. Boy uca, kürəklər enli, süysün elədi ki, kəl süysünü kimi... boynunun əti girdim-girdim, bığlar kəl buynuzu kimi. Sirindən-sifətindən zəhm tökülür" (Bax: "Koroğlu", səh. 300; "ქოროღლი", səh. 342).

Bir sözlə, təhlil olunan əsərin qəhrəmanının zahiri görünüşünün mənzərəsi bu cürdür. Lakin növbəti vəziyyət daha diqqətə layiqdir: Koroğlunun yenilməzliyini və ideal igidin formalaşmasının mistik-kosmik qüvvələrin şərtləndirməsinə baxmayaraq, eposda təkmilləşdirilmiş olaraq, ideya sxem-sima heç də təqdim edilməmişdir; eləcə də əksər hallarda adi insan olaraq bizə göstərilir ki, bu da bir çox layiqli əlamət-xüsusiyyətlərlə yanaşı zəiflik və qüsurluluqla özünü büruzə verir. Mənim fikrimcə, bu, Koroğlunun şəxsiyyətini daha artıq təəssüratoyadıcı edir və oxucu üçün daha məqbul qəhrəmana çevirir.

Hələ Koroğlunun uydurma olmayan, qeyri-təbii yenilməzliyi təsəvvürünə kölgə salması barədə deyək. Giziroğlu Mustafa bəylə onun vuruşmasını xatırlayaq: "Koroğlu qanrılıb geriyə baxdı ki, Giziroğlu uzaqdadır, yoxsa, yaxında, bir də onu gördü ki, təpəsinə bir əmud dəydi. Koroğlu özünü atın üstündə saxlaya bilməyib, təpəsi üstə yerə gəldi, yumbalanıb çaya düşdü. Doğrudur, Koroğlu öz rəqibini nəhayət məğlub edir və onun başını da kəsmək istəyir. Giziroğlu onu əmin edir ki, onunla düşmənçiliyi yox idi, sadəcə, kimin güclü olduğunu ayırd etmək istəyirdi. Koroğlu onu əfv etdi və əl verib, görüşüb, öpüşdülər, dost olub ayrıldılar. Çənlibelə qayıdan Koroğludan isə ziyafət zamanı Nigar xanım soruşdu: "Ay Koroğlu, sən ki, belə iş üzü bilənsən, igidsən, görəsən, bu dünyada sənin kimi ikinci bir adam da var, ya elə anan səni tək doğub?". Koroğlu sazı əlinə götürür, Giziroğlu Mustafa bəyi tərif edir. Bu dünyaya tək gəlib, hay deyəndə haya basar, huy deyəndə huya basar, Koroğlunu çaya basar, deyə oxuyur" (Bax: "Koroğlu", səh. 249-250; "ქოროღლი", səh. 274-275).

Bu epizoda uyğun olaraq Koroğlu əvvəlcə məğlub olur, sonra isə qalib gəlir, lakin o, etiraf edir ki, ona üstün gələ bilən Giziroğlu ona bərabər igiddir. Bu etiraf isə Giziroğlunu gözəlləşdirir, bir igid olaraq, igidlik əxlaq məcəlləsinin müdafiəçisi və sədaqətlisi olaraq. Və bu dəfə o, təbii insan olaraq, həqiqi insani xüsusiyyətlərini, ləyaqətini itirməyən biri kimi bizə təqdim olunur.

İkinci epizod Koroğlunun təbiətini başqa cür bizə təqdim edir. Burada oğlu Qurdoğlu ilə vuruşması verilibdir. Bu vuruşmanın kəskinliyi və tragizmi odur ki, Koroğlu ona kimi ilk nikahdan sonra olan öz oğlunun olduğunu bilmir. Qurdoğlu isə atasını tanıya bilmir. Müəyyən olunduğu kimi, Qurdoğlu atasının genetik olaraq gücünü alıb və ona qanı qaynayır. O, vuruş zamanı iki dəfə Koroğlunu məğlub edir və onu öldürmür, ona görə ki, bu sonuncu öz adını demir, çünki onun formalaşmış bir qaydası vardı: kim olur olsun, heç bir təqdirdə öz adını deməməlidir. Sonda onun qətiyyətli tələbi ilə keçirilən üçüncü vuruş zamanı Koroğlu Qurdoğlunu məğlub edir və onun başını kəsmək istəyir. Nigar xanım xəncəri onun əlindən alır: "O, səni iki dəfə yıxıb, kəsməyib. Sən onu bir dəfə yıxcaq kəsirsən? Heç namərdlik Koroğlu adına yaraşarmı?" (Bax: "Koroğlu", səh. 616; "ქოროღლი", səh. 639). Nəhayət, hər şeyə aydınlıq gətirilir və ata-oğul bir-birinə sarılırlar. Lakin burada bir cizgi diqqəti cəlb edir: Koroğlu çox qəhərlənir və layiq olmayan əməli törətməyə hazırdır, bu da igidliyin sarsılmaz etik qaydasını pozmaqdır ki, onun igidlik adına palçıq atır. Halbuki ləyaqətsizliyin qabağına Nigar xanım durur. Qurdoğlu iki döyüşdə alnıaçıq şəkildə Koroğluya üstün gəlir ki, bu da yenilməzlik mifinin təməlini sarsıdır.

Bütün bunlardan o yana Koroğlunun nöqsanı olaraq inadkarlığı, təkəbbürlüyü və başqalarının fikrinə məhəl qoymamağıdır ki, bu da heç də az olmayan hallarda onun özünü pis duruma salır. Məsələn, hiyləgərlik məqsədi ilə Çənlibeldə, guya ki, qonaq olan Əhməd tacirbaşı ceyran kababı istəyir. Koroğlu qonağın istəyini yerinə yetirmək üçün dəliləri Bayazidə göndərir. Dəlilər və xanımlar əmin edirlər ki, ceyran ətindən ötrü bu uzaq səfərə onları göndərməyə dəyməz. Gedərlər, başlarına bir iş gələr.

Koroğlu əlini qaldırıb deyir: "Koroğlu sözü bir dəfə deyər. Onlar getməsələr özüm gedəcəyəm. Mən qonağa verdiyim sözdən dönmərəm". Dəlilər də, xanımlar da gördülər yox, Koroğlunu sözündən döndərmək olmayacaq. Bir də ki, söz verib qurtarıb. Bundan sonra heç döndərmək də yaxşı düşməz. Çar-naçar razı oldular" (Bax: "Koroğlu", səh. 414; "ქოროღლი", səh. 436).

Təhlil olunan eposun əxlaqi inancına uyğun olaraq, sözü, illah da ki, qonağa verilən sözü yerə salmamaq bəyəniləsidir, lakin bu sözün yerə salınmaması dəlilərin tutulmasına və zindana salınmasına səbəb olur. Uzaqgörənlik və başqalarının fikirlərini nəzərə almaq yaxşıdır.

Daha bir epizodu gətirəcəyəm ki, bununla da Koroğlunun axmaq yerinə qoyulmasına, aldadılmasına səbəb olan onun özünə inamı və bütün yad insanlara inamı özünü yaxşı büruzə verir. Bu halda da qəhrəmanın məğlubiyyətinə səbəb yenə də başqalarının fikrini nəzərə almamasıdır. Özünü ilxıçı kimi qələmə verən, ömrünü-gününü bəypaşa qapısında çürüdüb ilxıya getdiyini, başının keçəl olduğuna görə heç bir qapıda duruş gətirə bilmədiyini deyən Keçəl Həmzə Koroğluya özünü bəyəndirir. Koroğlu onu Çənlibelə aparır. Dəlilər Keçəl Həmzəni görən kimi Koroğluya dedilər: "Heç əməlli adama oxşamır. Rədd elə getsin. Xanımlar da dəlilərin sözlərini təsdiqlədilər. Lakin Koroğlu onların şübhəsinə, əhval-ruhiyyəsinə şərik olmadı.

Məhz elə bu Həmzə əvvəlcə Düratı oğurladı, sonra isə dəyirmanda Koroğlunu elə aldatdı ki, Düratın əvəzinə Qıratı da əlinə keçirdi. Koroğlunun ürəyini daha çox o ağrıtdı ki, dəlilər ondan üz döndərdilər və ona tərəf bir daha baxmadılar, ümumiyyətlə, Çənlibeli tərk etmək istəyirlər. Çünki onların sözü Koroğlunun yanında bir çürük qozdur. Söz Koroğluya acıq gəldi. Bir tərəfdən Qırat əldən getmişdi, bir tərəfdən də Həmzə kimi keçəl onu aldatmışdı. Öz dərdi özünə bəs deyildi, indi də dəlilər belə deyirdilər" (Bax: "Koroğlu", səh. 292-293; "ქოროღლი", səh. 333).

Lakin işə Nigar xanım qarışdı və sazı əlinə aldı bu sözlər ilə kəskin şəkildə istehza etdi: "Çöldə gəzən boz sərçələr, gülün qədrini nə bilir, sənin kimi başa çatan elin qədrini nə bilir?" Koroğlu öz təqsirini başa düşdü. Üç gün, üç gecə tamam ac, susuz qaldı" (Bax: "Koroğlu", səh. 294; "ქოროღლი", səh. 335).

Qısası, Koroğlu öz səhvini başa düşdü, lakin özünün özünə inamına görə tez-tez tələyə düşürdü. Bununla əlaqədar Koroğlunun Bolu bəylə sərgüzəştini xatırlamaq olar: Çənlibel qoruğunda yaraqsız-yasaqsız Koroğlunun üstünü Bolu bəy və onun qoşunu aldırır. Koroğlu hər cür vəchlə əmin etməyə cəhd edir ki, o qoruqçudur. Lakin Koroğlunun mehtəri olan xain Mehtər Murtuz onun Koroğlu olduğunu deyir. Bolu bəy ona nə ilə işgəncə vermədi – gah döyməklə, gah da suda boğmaqla onu sındıra bilmədilər. Koroğlu isə gah mahnı ilə, gah məntiqi mühakimə ilə öz qoruqçuluğunu təsdiq edirdi. Nəhayət, məntiq qalib gəlir və Bolu bəy onu azad edir, Koroğlu getmək istəyəndə Bolu bəy deyir: "İndi mərdi-mərdana özünü de görək, sən Koroğlusan, ya yox?" Koroğlu da cavab verir: "İndi ki, sən mərdi-mərdana soruşursan, mən də mərdi-mərdana sənə cavab verəcəyəm. Bəli, Koroğluyam". Bundan sonra söz vermək gəlir ki, Koroğlu mütləq Bolu bəyin yanına düşüb Hasan Paşanın yanına gedir. Çünki Koroğlu igidə layiq olaraq verdiyi sözə əməl edir, lakin əvvəlcə Bolu bəyin qoşununa misri qılıncı çəkir və sonra Bolu bəyə təslim olur. Lakin Bolu bəy şeytancasına və hiyləgərcəsinə ona da nail olur ki, Koroğlunun başını qılıncla yaralayır və qılınc bir neçə barmaq işləyir. Üzü-gözü al-qana boyanmış Koroğlu ona deyir: "Ay namərd! Belə niyə etdin?" Bolu bəy cavab verir: "Elə elədim ki, inansınlar. İndi inanarlar. Mən gəlmişdim sənin ya başını aparam, ya leşini. İndi başını da aparıram, leşini də. Sən Koroğlusansa, mənə də Bolu bəy deyərlər!"

Koroğlu bu dəfə də öz səhvini başa düşür və Bolu bəyə belə cavab verir: "Günah səndə deyil, məndədir. Mənə bu da azdır..." Koroğlunun hər yerdən ümidi üzüldü. Bu dar vaxtında Çənlibel, dəlilər, xanımlar yadına düşdü. Qanrılıb belə baxdı, gördü uzaqdan Çənlibelin qoşa təpələri görünür. Ürəyi qubar elədi" (Bax: "Koroğlu", səh. 510; "ქოროღლი", səh. 533). Nəhayət, tövbə və barmağını dişləmək gecdir, özünün həddən artıq özünə inanmaqlığı axırda quyuya saldırdı.

Doğrudur, Koroğlu igidliyin əxlaq məcəlləsinə uyğun olaraq hər şeyi alnıaçıq yerinə yetirir, lakin bu epizoddan da onun özünə həddindən çox inanmasının ziyan vurduğu aydın görünür. Və ən başlıcası, onun kimi mübariz və təcrübəsi olan insan paşalarla və bəylərlə münasibət zamanı daha çox ehtiyat və diqqət göstərməlidir. Onun özü başa düşür ki, başına gələnlər onun cinayəti deyildir, bu dəfə də o, insani zəiflik göstərir ki, bu da onun yenilməzliyinin əfsanəvi dayağının təməlini dağıdır.

Bir sözlə, Koroğlu təkmilləşmiş igiddir, fiziki qüvvəsi ilə, eləcə də zəngin mənəviyyatı ilə fərqlənir. Alicənablığı, sözü yerə salmamağı, lütfkarlığı, mərhəməti ilə, ən başlıcası, səmimi və güclü məhəbbəti ilə tanınır. Eyni zamanda, o, sarsılmaz və mətin döyüşçüdür ki, paşaları, xanları, xotkarları, bəyləri qırıb batırır, yalançı tacirlərə də aman vermir və varlıların əmlakına rüsum qoyur, soyub talan edir. Lakin bu diqqətə layiqdir: Koroğlu dolğunluğun, ideal qəhrəmanın sxem modeli deyildir və adi insanın təbii xüsusiyyətlərini də aşkarlayır. Məhz elə Orta əsrlərin klassik ədəbiyyatı qəhrəmanlarının nöqsansızlığı onları sxematik simaya çevirdiyi simasından fərqləndirir. Düşünürəm ki, məhz elə bu, əsas səbəblərdən biridir ki, Koroğlu Azərbaycan, eləcə də Qafqaz və illah da ki, Orta Asiya xalqlarının sevimli və populyar qəhrəmanıdır.

*(davamı gələn sayda)*

Gürcü dilindən tərcümə edən:
**Mirzə Məmmədoğlu**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 OKTYABR
2023-CÜ İL
№ 019 (190)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## 2023-CÜ İLİN MİLLİ MÜƏLLİM MÜKAFATININ QALİBİ NİNO PSUTURİ OLUB




2023-cü ilin Milli Müəllim Mükafatının qalibi Qoridən olan biologiya müəllimi **Nino Psuturi** olub.

Milli Müəllim Mükafatının qalibi oktyabrın 5-i – Beynəlxalq Müəllimlər Günü Tbilisidə yerləşən “Garden Hall”da elan olunub. Qalibə kampaniyanın sponsoru Qudavadze-Patarkatsişvili Fondu tərəfindən pul mükafatı olaraq 15000 lari verilib. Ən yaxşı onluğun digər üzvlərini isə “Liberty” Bank 5000 lari ilə mükafatlandırıb.

***Xatırladaq ki, 2023-cü ilin Milli Müəllim Mükafatının 5 finalçısı bunlar idi:***

**Kamran Əfəndiyev** – Marneuli bələdiyyəsinin Mollaoğlu və Tsopi kənd icitmai məktəbinin gürcü dili ikinci dil kimi fənni üzrə müəllim.

**İna İmedaşvili** – Tbilisi UG məktəbinin ibtidai sinif, gürcü dili və ədəbiyyatı müəllimi.

**Marine Kvaratsxelia** – Akademik Eqnate Pipia adına Tsalencixa bələdiyyəsinin Çkvaleri icmasının ictimai məktəbinin gürcü dili və ədəbiyyatı müəllimi.

**Nino Psuturi** – Qori 8 saylı ictimai məktəbin biologiya müəllimi.

**Nino Niparişvili** – Kaspi bələdiyyəsinin “Besik Niparişvili” MMC Çoxşaxəli Məktəb – Gimnaziyasının mən və vətəndaş, vətəndaşlıq və vətəndaş təhsili müəllimi.

***Qeyd edək ki, Milli Müəllim Mükafatı Təhsil Koalisiyası, Təhsil və Elm Nazirliyi və Müəllimlərin Peşə İnkişafı üzrə Milli Mərkəz arasında bağlanmış memorandum əsasında 2017-ci ilin 13 mayında təsis edilib.***

***Qeyd olunan təşəbbüs Gürcüstanda artıq 7-ci dəfə həyata keçirilir və bu, müəllim peşəsinin populyarlaşdırılmasına istiqamətlənmiş qlobal kampaniya – “The Global Teacher Prize”ın bir hissəsidir.***

*Mənbə: edu.aris.ge*

## 2023-2024-CÜ TƏDRİS İLİNDƏ NEÇƏ RƏSMİ İSTİRAHƏT GÜNÜ VAR?



Gürcüstanda 2023-2024-cü tədris ili sentyabrda başladı və iyun ayında başa çatacaq. İl ərzində bir neçə rəsmi istirahət günü var. Həmin günlərdə dövlət müəssisələri işləmir, əlbəttə, bu qayda təhsil müəssisələrinə də aiddir.

**Yeni tədris ilində ümumilikdə 9 istirahət günü olacaq, həmin günlər bunlardır:**

• 23 noyabr – Giorqoba (cümə axşamı);
• 1 yanvar – Yeni il (bazar ertəsi);
• 2 yanvar – Yeni il (çərşənbə axşamı);
• 19 yanvar – Natlisğeba (xaç suyuna çəkmə) (cümə);
• 8 mart – Beynəlxalq Qadınlar Günü (cümə);
• 9 aprel – 1989-cu il aprelin 9-da ölkənin azadlığı və suverenliyi uğrunda həlak olanların xatirəsinin yad edilməsi və dövlət müstəqilliyinin bərpası günü (çərşənbə axşamı);
• 3 may – Qırmızı cümə;
• 6 may – Pasxadan sonrakı bazar ertəsi və Giorqoba;
• 9 may – Faşizm üzərində Qələbə Günü (cümə axşamı).

Doğrudur, rəsmi istirahət günləri yalnız bunlardan ibarət deyil, ancaq digərləri şənbə-bazar günlərinə təsadüf etdiyi üçün burada qeyd edilməyib.

*Mənbə: etaloni.ge*

## ABŞ GÜRCÜSTANA YENİ SƏFİR TƏYİN EDİB



Gürcüstan Prezidentinin mətbuat xidmətinin yaydığı məlumata əsasən, Amerika Birləşmiş Ştatlarının Gürcüstana yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Robin Danniqen etimadnaməsini Gürcüstan prezidenti Salome Zurabişviliyə təqdim edib.

Məlumata görə, etimadnamələrin rəsmi təqdimetmə mərasimi Orbeliani sarayında baş tutub. Sonra Prezident səfirlə təkbətək görüş keçirib.

ABŞ-ın yeni səfiri Prezident Salome Zurabişviliyə qəbula görə təşəkkür edib. Bildirib ki, Gürcüstan Prezidenti ilə sıx əməkdaşlıq gözləyir.

Səfir həmçinin ABŞ Prezidenti Co Baydenin salamlarını çatdıraraq, onun Gürcüstan xalqına rifah arzuladığını deyib.

## UNUN İDXAL RÜSUMU ARTIRILIB



Hökumətin qərarına əsasən, oktyabrın 11-dən unun bir tonu üçün idxal rüsumu 50 lari artırılıb, kəpək və arpaya isə 100 lari idxal vergisinin tətbiqinə başlanılıb. Bunu Gürcüstan ətraf mühitin mühafizəsi və kənd təsərrüfatı nazirinin müavini Tengiz Nasaridze deyib.

Onun sözlərinə görə, bir ton unun idxalı üçün dövlət rüsumu 200 lari əvəzinə 250 lari təşkil edəcək. Bu qərar yerli istehsalçılara yetişdirdikləri buğdanı satmaqda böyük kömək göstərəcək.

Nazir müavini bildirib ki, ölkədə kifayət qədər un ehtiyatı olduğundan unun idxal rüsumunun artırılması çörəyin qiymətinə heç bir şəkildə təsir etməyəcək.

İdxal rüsumuna edilən dəyişiklik 2024-cü ilin mart ayınadək qüvvədə olacaq, lakin hər hansı müdaxiləyə ehtiyac olarsa, prosesə uyğun qərar veriləcək.

## SON 10 İLDƏ 25154 NƏFƏRİN GÜRCÜSTAN VƏTƏNDAŞLIĞINA XİTAM VERİLİB



Dövlət Xidmətlərinin İnkişafı Agentliyinin yaydığı məlumata əsasən, son 10 ildə Rusiya vətəndaşlığı aldığı üçün 25154 nəfərin Gürcüstan vətəndaşlığına xitam verilib.

Bildirilib ki, təkcə cari ilin ilk 9 ayı ərzində 2189 şəxs Gürcüstan vətəndaşlığını itirərək Rusiya vətəndaşlığı əldə edib.

**İllərə əsasən Rusiya vətəndaşlığına görə Gürcüstan vətəndaşlığını itirənlərin statistikası bu cürdür:**

2013-ci il – 11758 nəfər;
2014-cü – il 2874 nəfər;
2015-ci il – 2523 nəfər;
2016-cı il – 1071 nəfər;
2017-ci il – 1206 nəfər;
2018-ci il – 877 nəfər;
2019-cu il – 692 nəfər;
2020-ci il – 252 nəfər;
2021-ci il – 354 nəfər;
2022-ci il – 1358 nəfər;
2023-cü il (sentyabrın 28-nə kimi) – 2189 nəfər.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.